BAKI DÖVLƏT UNİVERSİTETİNİN QAZAX FİLİALI

Bakı Dövlət Universitetinin Qazax filialının Direktorluğunun 16 mart 2023-cü il tarixli iclasının (Protokol № 3) qərarı ilə qəbul edilmişdir.

**TƏSDİQ EDİRƏM**

**Direktor ________ Arif Rüstəmov**

**« 16 » « mart » 2023-cü il**

# KİMYA VƏ BİOLOGİYA TƏDRİS LABORATORİYASININ

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

1.1. Bakı Dövlət Universitetinin Kimya və biologiya tədris laboratoriyası BDU-nun Qazax filialının müstəqil struktur bölməsi olmaqla birbaşa direktora tabedir;

1.2. Kimya və biologiya tədris laboratoriyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq rəhbər sənədlərinə əsasən BDU rektorunun əmri ilə yaradılır və ləğv edilir;

1.3. Kimya və biologiya tədris laboratoriyasına BDU-nun Qazax filialının direktorunun əmri ilə təyin olunmuş laboratoriya müdiri rəhbərlik edir;

1.4. Kimya və biologiya tədris laboratoriyası öz fəaliyyətində rəhbər tutur:

- BDU Qazax filialının Əsasnaməsini;
- BDU Qazax filialının direktorunun göstərişlərini, əmr və sərəncamlarını;
- BDU Qazax filialı Tədris şöbəsinin Əsasnaməsini.

## 2. Kimya və biologiya tədris laboratoriyası müdirinin hüquq və vəzifələri

2.1. Kimya və biologiya tədris laboratoriyası müdirinin əsas hüquqları aşağıdakılardır:

2.1.1. Laboratoriyada iş aparılarkən maddi-texniki bazadan düzgün istifadə edilməsini, təhlükəsizlik qaydalarına əməl edilməsini tələbələrdən tələb etmək;

2.1.2. Yararsız hala düşmüş avadanlıqları qanunvericilikdə müəyyən olunmuş qaydada laboratoriyanın maddi-texniki bazası siyahısından silmək;

2.1.3. Laboratoriyada çatışmayan avadanlıq və ləvazimatların alınması üçün direktorluğa tələbnamə ilə müraciət etmək;

2.1.4. Fiziki və hüquqi şəxslər tərəfindən laboratoriyaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada tələb etmək;

2.1.5. Respublika və xarici dövlətlərin laboratoriyaları ilə əlaqə yaradılmasında iştirak etmək.

2.2. Kimya və biologiya tədris laboratoriyası müdirinin vəzifələri aşağıdakılardır:

2.2.1. Elm və Təhsil nazirliyi və BDU Qazax filialının rəhbərliyinin əmr və göstərişlərini, təlimat və tövsiyələrini rəhbər tutaraq laboratoriyada elmi-tədqiqat laboratoriya işlərini təşkil etmək;

2.2.2. Laboratoriya işini yerinə yetirərkən riayət olunması tələb edilən təhlükəsizlik və davranış qaydaları haqda tələbələri təlimatlandırmaq;

2.2.3. Hər il üzrə iş planlarının və hesabatların hazırlanması.

## 3. Laboratoriya işinin təşkili

Hər bir laboratoriya işinin yerinə yetirilməsinə dair metodiki təlimatın tərkibinə aşağıdakı bölmələr daxil olmalıdır:

3.1. Annotasiya;

3.2. İşin məqsədi və vəzifələri;

3.3. İşin məzmunu;

3.4. İstifadə olunan ləvazimat və avadanlıqların siyahısı;

3.5. İstifadə edilmiş və tövsiyə olunan ədəbiyyatın siyahısı (tədris ədəbiyyatı, məlumat kitabları);

3.6. Proqram təminatı (əgər varsa);

3.7. Laboratoriya işini yerinə yetirərkən riayət olunması tələb edilən təhlükəsizlik və davranış qaydaları;

3.8. Yoxlama sualları (laboratoriya işini yerinə yetirməyə buraxılmaq və yerinə yetirilmiş laboratoriya işini təhvil vermək üçün).